

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 200 (21.610)

23 oktyabr 2016-cı il, bazar

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronun oktyabrın 22-də rəsmi qarşılanma mərasimi olub.

* * *

Oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşü olub.

Prezident İlham Əliyev Venesuela Prezidentinin Azərbaycana səfərinin ikitərəfli əməkdaşlığın genişləndirilməsi və ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə inkişafı üçün yaxşı imkanlar yaratdığını vurğulayıb.

Venesuela Prezidenti Nikolas Maduro Azərbaycana səfərinin ikitərəfli əlaqələrin inkişafına yol açacağını deyib. O, bunun hər iki ölkənin regionları üçün əhəmiyyətli olduğunu bildirib.

Görüşdə ticarət, investisiya qoyuluşu, energetika sahələrində əməkdaşlıq əlaqələrinin araşdırılması barədə fikir mübadiləsi aparılıb.

* * *

Oktyabrın 22-də məhdud tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan-Venesuela sənədlərinin imzalanması mərasimi olub.



* * *

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro mətbuata bəyanatlarla çıxış ediblər.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronun şərəfinə rəsmi ziyafət verilib.

## Kəngərli rayonunda qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir

Muxtar respublikada meliorasiya və irriqasiya sahəsində müasir infrastrukturun yaradılması ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Mütərəqqi irriqasiya sistemlərinin və rentabelli suvarma şəbəkələrinin qurulması əkin sahələrinin genişləndirilməsinə, torpaqlardan səmərəli istifadəyə və bol məhsul istehsalına şərait yaradır.





Oktyabrın 22-də Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərini əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov məlumat vermişdir ki, 117 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi ərazidə şoranlaşmanın qarşısının alınmasına imkan verəcəkdir. Tikinti işləri aparılarkən ərazinin relyefi nəzərə alınmış, suyun itkisiz çatdırılması və öz axını ilə paylanması təmin edilmişdir. Su mənbəyi kimi Araz çayından qidalanan nasos stansiyası götürülmüşdür. Ərazidə 2,2 kilometr uzunluğunda ana xətt, 9930 metr uzunluğunda isə paylayıcı su xətləri çəkilmişdir. Su xətlərinin üzərində 25 siyirtmə, 103 hidrant və 20 suboşaldıcı qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsinin əlamətdar hadisə olduğunu bildirərək demişdir: Naxçıvan Muxtar Respublikası aqrar-sənaye regionudur. Ona görə də hər iki sahənin inkişafı, xüsusilə tələbata uyğun xammal və keyfiyyətli məhsul istehsalı qarşıda duran əsas vəzifədir. Bunun üçün, ilk növbədə, kənd təsərrüfatı rentabelli inkişaf etdirilməlidir. Muxtar respublikada meliorasiya və irriqasiya tədbirlərinin görülməsi, məhsuldar toxum sortlarından istifadə, mütərəqqi suvarma və əkin metodlarının tətbiqi diqqət mərkəzində saxlanılır, məhsuldarlıq artırılır.

Ali Məclisin Sədri demişdir: Əkinəyararlı torpaqlardan səmərəli istifadə və şoranlaşmanın qarşısının alınması vacib məsələdir. Qapalı suvarma şəbəkələrinin qurulması, şırım üsulu ilə əkinə üstünlük verilməsi, torpaqlarda meliorativ tədbirlərin görülməsi və aqrotexniki qaydalara əməl edilməsi bu mənada mühüm əhəmiyyət daşıyır. Əvvəllər muxtar respublikada taxılın ümumi məhsuldarlığı hər hektarda 18-20 sentner idi. Lakin mütərəqqi əkin və suvarma metodlarının tətbiqi nəticəsində taxıl sahələrində məhsuldarlıq hər hektarda 30-35 sentnerə çatdırılmışdır. Vaxtilə muxtar respublikada 25 min ton taxıl istehsal olunurdusa, bu il muxtar respublikada 100 min tondan çox taxıl, 3 min tondan artıq qarğıdalı və digər kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur.

Ali Məclisin Sədri demişdir: Mütərəqqi suvarma metodlarının tətbiqi əkinçiliyin inkişafı ilə yanaşı, muxtar respublika ərazisində yaşıllıqların sahəsinin artırılmasına da səbəb olmuşdur. Muxtar respublika sakinləri bu işdə yaxından iştirak etmiş, yeni yaşıllıq zolaqları və meyvə bağları salınmışdır. Kəngərli rayonunun Böyükdüz və Xok kəndlərinin sakinləri zəhmətkeş insanlardır. Kənd sakinlərinin iştirakı ilə son illər geniş yaşıllıq zolaqları salınmış, səliqəsahman yaradılmışdır.

Ali Məclisin Sədri yaşıllıqların və meyvə bağlarının salınmasında Böyükdüz kənd sakini, sağlamlıq imkanları məhdud Hümbət Həsənovun zəhmətini xüsusi qeyd etmiş, Kəngərli rayonunda qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi münasibətilə sakinləri və torpaq mülkiyyətçilərini təbrik etmiş, yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.

Xok kənd sakini Davud Abbasov torpaq mülkiyyətçiləri adından minnətdarlıq edərək demişdir: Torpaq bərəkət, bolluq rəmzidir. Dədəmiz Qorqud deyirdi ki, "Torpağı əkib-becərmədin, qorumağa dəyməz. Torpağı qoruya bilmədin, əkib-becərməyə dəyməz". Min illərdir ki, torpaqlarımız qorunub bizə çatdırılıb. Müstəqilliyin bəhrələrindən biri də odur ki, hər kəs öz torpağının sahibidir. Bu gün torpaqdan gəlir götürmək, əkib-becərmək üçün dövlətimiz tərəfindən bütün şərait yaradılıb. Qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi də Xok və Böyükdüz kəndlərində torpaqdan səmərəli istifadəyə geniş imkanlar açacaqdır. Hər bir kənd sakini yaradılan şəraitdən səmərəli istifadə edəcək, ölkəmizdə kənd təsərrüfatının inkişafı ilə bağlı müəyyənləşdirilən vəzifələri uğurla yerinə yetirəcək, əkin sahələrini genişləndirərək bol məhsul istehsal edəcəkdir.

Ali Məclisin Sədri idarəetmə düyməsini basaraq qapalı suvarma şəbəkəsini istifadəyə vermişdir.

## Muxtar respublikada taxıl əkini aparılır

Oktyabrın 22-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlmiş, muxtar respublikada taxıl əkininin gedişi ilə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev məlumat verərək demişdir ki, 2017-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 31 min hektar sahədə şum aparılaraq taxıl əkini keçirilməsi nəzərdə tutulur. Bu günə qədər muxtar respublikada 17 min hektar sahədə şum, 7 min hektar sahədə isə əkin aparılmışdır. Böyükdüz kəndi ərazisindəki taxıl sahəsi 410 hektardır. Bu günədək 260 hektarda taxıl əkini aparılıb. Əkin zamanı yüksək reproduksiyalı, muxtar respublikanın torpaq iqlim şəraitinə uyğunlaşmış məhsuldar toxum sortlarından istifadə olunur. Tələb olunan toxum torpaq mülkiyyətçilərinin öz təsərrüfatları və toxumçuluq təsərrüfatları tərəfindən təmin olunur. Bu ilin payızında Şahbuz, Culfa və Ordubad rayonlarının dağlıq

Ardı 2-ci səhifədə





ərazilərində dəmyə taxıl əkininə də üstünlük verilir.

Payızlıq şum və əkin aparılması üçün texnikalar da saz vəziyyətə gətirilmiş, "Naxçıvan Aqrolizinq" ASC-yə məxsus 6, fiziki şəxslərdə olan 18 taxılsəpənə şırımaçan qoşulmuşdur. Texnikanın gücündən səmərəli istifadə olunması səpin işlərinin optimal müddətdə başa çatdırılmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işinin aparılması, mütərəqqi əkin və suvarma metodlarının tətbiqi, taxılçılıqda dəmyə əkinçiliyinə üstünlük verilməsi, vegetasiya dövründə aqrotexniki qaydalara düzgün əməl edilməsi və payızlıq taxıl əkininin vaxtında başa çatdırılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda yeni tut bağı salınmışdır





Muxtar respublikada meyvəçiliyin inkişafı diqqət mərkəzindədir. Qəbul olunan dövlət proqramlarının icrası meyvəçiliyin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Bu iş keçirilən iməciliklər zamanı da diqqətdə saxlanılır, yaşıllıq zolaqları ilə yanaşı, hər il yüz hektarlarla meyvə bağı da salınır.

Oktyabrın 22-də Naxçıvan Muxtar Respublikasında növbəti iməciliklər keçirilmiş, meyvə bağları salınmış, yaşıllıqların sahəsi artırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin və Kəngərli Rayon İcra Hakimiyyətinin kollektivləri Naxçıvan-Şərur avtomobil yolunun kənarında, Böyükdüz kəndi ərazisində iməcilik keçirmiş, yeni tut bağı salmışlar.

Tut bağı üçün nəzərdə tutulan ərazi 12 hektardır. Ərazidə meliorativ və aqrotexniki tədbirlər görülmüş, torpaq qatı əkin üçün yararlı vəziyyətə gətirilmişdir. Qapalı suvarma şəbəkəsinin qurulması bu ərazinin də dayanıqlı su təminatına imkan verəcəkdir. İməcilik iştirakçıları ərazinin 2 hektarında 1100 ədəd tut tingi əkərək suvarmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, əkin işlərinin davam etdirilməsi barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Əhaliyə göstərilən bank xidmətlərinin səviyyəsi yüksəldilir

***Bazar iqtisadiyyatı şəraitində bank və digər bank olmayan kredit təşkilatlarının böyük əhəmiyyəti vardır. Banklar təkcə kreditləşmə işində deyil, həm də sadə vətəndaşdan tutmuş iri firmalaradək bütün iqtisadi subyektlərin mənafelərinin təmin olunmasında və dövlətin maraqlarının qorunmasında ən vacib maliyyə strukturlarıdır.***



Bu baxımdan Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar qarşısında regionda özəl sektorun dəstəklənməsi, onlara maliyyə dəstəyinin göstərilməsi, yeni layihələrin həyata keçirilməsi, əhali əmanətlərinin banklara cəlb olunması və elektron bankçılıq sahəsində işlərin genişləndirilməsi vəzifələri qoyulub. Bankların həyata keçirdiyi kredit qoyuluşları kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında da mühüm şərtdir. Buna görə də muxtar respublikamızda fəaliyyət göstərən 16 bank qurumu tərəfindən aparılan kreditləşmənin əsas yönü aqrar sektorun inkişafı, ixraca yardım və daxili bazarın qorunması, kiçik və orta sahibkarlığın inkişafı istiqamətindədir.

Dünya iqtisadiyyatındakı qeyri-müəyyənliyə və mürəkkəb iqtisadi şəraitə baxmayaraq, cari ilin ötən dövrü Naxçıvan Muxtar Respublikasının bank-kredit təşkilatları üçün uğurlu olub. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumatda bildirilir ki, bank və kredit təşkilatları tərəfindən 2016-cı ilin ilk 9 ayı ərzində 26 milyon 50 min manat kredit verilib. Bunun da 8 milyon 238 min manatı qısamüddətli, 17 milyon 811 min manatı isə uzunmüddətli kreditlərdir. Verilmiş kreditlərin 8 milyon 229 min manatı kənd təsərrüfatı, 872 min manatı sənaye, 250 min manatı tikinti, 2 milyon 698 min manatı kommersiya, 3 milyon 617 min manatı nəqliyyat, 9 milyon 550 min manatı digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib. Verilmiş kreditlərin 47 faizini kiçikhəcmli kreditlər təşkil edir. 2016-cı ilin ilk 9 ayı ərzində banklara 43 milyon 384 min manat kredit borcu qaytarılıb. Vaxtı keçmiş kredit borclarının yığılması işi sürətləndiriləcək cari ilin ilk doqquz ayı ərzində Sahibkarlığa Kömək Fondu vasitəsilə rindən 6 milyon 268 min manat vaxtı keçmiş kredit borcları yığılıb.

Bu dövrdə muxtar respublikada nağdsız ödənişlərə də diqqət xeyli artırılıb. "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilib, dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanları artırılıb. Artıq muxtar respublika sakinləri ödəniş kartları vasitəsilə vergi və rüsumları, gömrük rüsumlarını, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumları, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarını, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsini elektron ödəniş formasında apara bilirlər. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi, "Naxçıvan Su-Kanalizasiya" Açıq Səhmdar Cəmiyyəti tərəfindən vətəndaşların kommunal ödənişlərini POS-terminallarla yanaşı, ödəniş kartlarından istifadə etməklə internet üzərindən həyata keçirmələri də təmin olunub.

Ötən dövrdə muxtar respublikada əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi məqsədilə POS-terminalların quraşdırılması diqqət mərkəzində saxlanılıb. Belə ki, cari ilin 9 ayında 127 ədəd POS-terminal quraşdırılaraq onların sayı 1 oktyabr 2016-cı il tarixə 1171 ədədə çatdırılıb ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 152 ədəd çoxdur. Bu da, öz növbəsində, aparılan nağdsız ödənişlərin həcminin artmasına səbəb olub. Belə ki, 2016-cı ilin 9 ayı ərzində muxtar respublikada POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 20 milyon 592 min manat olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 milyon 94 min manat çoxdur.

Muxtar respublikada fəaliyyət göstərən banklar pulköçürmə əməliyyatlarında da aktivlik edirlər. Belə ki, qeyd olunan dövr ərzində təcili pul köçürmələri vasitəsilə dünyanın 40-dan çox ölkəsindən və ölkəmizin digər bölgələrindən muxtar respublika sakinlərinin adına 4 milyon 181 min ABŞ dolları məbləğində pul köçürülüb və banklar vasitəsilə ödənilməsi həyata keçirilib.

Bunlardan əlavə, ötən dövr ərzində muxtar respublika bankları əhali əmanətlərinin cəlbi və maarifləndirmə sahəsində də xeyli işlər görüblər. Belə ki, 1 oktyabr 2016-cı il tarixə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 497 min manat, o cümlədən xarici valyuta ilə 3 milyon 630 min manat təşkil edib. Hazırda banklara qoyulan əmanətlər üçün müddətindən və növündən asılı olaraq 2 faizdən 15 faizədək illik faiz ödənilir. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 27 iyul 2015-ci il tarixli Sərəncamına əsasən, Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən hamiliyə götürülüb, "Naxçıvan" Universiteti və Naxçıvan Dövlət Texniki Kollecində yaradılmış "Bank işi" kabinələri müxtəlif bank vəsaitləri ilə təmin edilib. Bu tapşırığın icrası ilə əlaqədar Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları tərəfindən 2016-cı ilin 9 ayında hər iki təhsil ocağının tələbələri ilə görüşlər keçirilərək "Ailə büdcəsinin formalaşdırılması", "Maliyyə resurslarının idarə olunması", "Nağdsız ödənişlərin üstünlükləri və iqtisadi artımda rolu" və sair mövzularda seminar-məşğələlərin keçirilməsi davam etdirilib.

Göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən bütün bank qurumları elektron ödəniş məkanının formalaşdırılması, nağd pul kütləsinin bank dövriyyəsinə cəlb edilməsi, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, pul dövriyyəsinin təşkilinin daha da müasirləşdirilməsi, nağdsız hesablaşmaların miqyasının artırılması, yeni bank xidmətlərinin yaradılması işində xeyli uğurlar əldə ediblər.

**Əli CABBAROV**

*24 oktyabr Hüseyn Cavid Poeziya Günüdür*

# Ədəbiyyatımızın əbədiyaşar sənətkarı



***Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Hüseyn Cavidin anadan olmasının 134 ili tamam olur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş “Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”na əsasən, hər il oktyabrın 24-ü Naxçıvan Muxtar Respublikasında “Hüseyn Cavid Poeziya Günü” kimi qeyd edilir.***

Azərbaycan ədəbiyyatının böyük romantiki Hüseyn Cavid xalqımızın mütəfəkkir sənətkarlarından olmaqla mürəkkəb və çətin yaradıcılıq yolu keçmiş görkəmli simalardan biridir. Böyük sənətkarın həqiqət, ədalət, səadət, məhəbbət, mərhəmət axtaran romantik qəhrəmanları iztirablı və əzablı bir yolun yolçuları kimi daim axtarışdadır. Hüseyn Cavid də sənətkar kimi bəşəriyyətin mənəvi fikir və qəlb dünyası ilə bağlı olan məsələlərlə əlaqədar yaradıcılığının başlanğıcından sonuna qədər daim axtarışda olmuşdur. Sənətkarı real aləmlə ideal aləm arasında olan uçurumlar, bu uçurumları aradan qaldırmaq, xəyal içində səadət arayan bəşəriyyəti nicat yoluna çıxarmaq kimi ümumbəşəri məsələlər ömrü boyu düşündürmüşdür. Bu mənada, Hüseyn Cavid fikir və düşüncələr aləminin həyatiliyi, heyrətamizliyi, zərifliyi, əlvanlığı, qəlblərə hakim kəsilməsi ilə ədəbiyyat tariximizə əbədi daxil olmuşdur. Onun əsərlərində canlanan həyat səhnələri və həqiqətləri, obraz və xarakterlərinin rəngarəngliyi, dolğunluğu və kamilliyi insanı vəcdə gətirir. Məhz buna görə də zaman keçdikcə, illər ötdükcə bu sənət təsir qüvvəsini itirmir, təzə-tər sənət dünyası ilə insanı düşündürür, həyata bağlayır.

Hüseyn Cavid sənəti, görüşləri və yaradıcılıq taleyi baxımından ədəbiyyat tariximizdə özündən əvvəlkilərə və sonrakılara bənzəməyən bir sənətkardır. Sənətkar kimi çox əzəmətli və məğrur, mütəfəkkir şair-dramaturq kimi çox zərif və incəqəlbli, fitri istedad sahibi olan Hüseyn Cavidin yaratdığı obrazlar bənzərsiz və təkrarolunmaz insan xarakterlərinin canlı qalereyasıdır. Şair-dramaturqun “Qız məktəbində”, “Şərq qadını”, “Novruz bayramı”, “Vərəmli qız”, “Dəniz pərisi”, “Get”, “Qonşu çiçəyi”, “Mən istərim ki”, “Görmədim”, “Hərb allahı qarşısında”, “Bir xatirə”, “Qürubə qarşı” kimi şeirləri, “Azər” poeması və “Uçurum”, “Ana”, “Maral”, “Şeyx Sənan”, “Afət”, “Topal Teymur”, “İblis”, “Knyaz”, “Xəyyam”, “Səyavuş”, “Şeyda”, “Peyğəmbər” və başqa monumental əsərləri Azərbaycan romantik ədəbiyyatının qızıl fonduna daxil olmuşdur. Bu əsərlərdə insanın həyatda apardığı mübarizə, dünya haqqında mükəmməl, insanlıq haqqında kamil təsəvvür yaradılmışdır. Hüseyn Cavid sənəti fikir və duyğular, obraz və xarakterlər, zaman və məkan məhdudiyyəti ilə sərhədlənmir, onun yaradıcılığı sonsuzluq və müxtəliflik mücəssəməsidir. Hüseyn Cavid insanları heç zaman milli və dini mənsubiyyətinə görə ayırmır, əksinə, onları yaxınlaşdıracaq ən incə telləri axtarır, onları birləşdirəcək yolları arayır, bütün bəşəriyyəti səadətə aparacaq yollar haqqında düşünür. Böyük sənətkarın əsərləri həm də multikultural dəyərlərin daşıyıcısı kimi bu gün bizə bütün bəşəriyyəti düşündürən suallara cavab aramaqda kömək edir, yol göstərir.

Müdriklərin fikrinə görə, yaratmaq ölümü öldürmək deməkdir. Cavid ölümə qalib gəlmiş bütün zamanların filosof sənətkarıdır. Onun sənəti ədəbiyyat tariximizdə yeni bir mərhələdir. Ədibin tərcümeyi-halı adi həyat yolu deyildir: böyük sənətkarın həyatının Naxçıvan və Təbriz dövrləri, İstanbulda keçirdiyi təhsil illəri, ədəbiyyata gəlməsi, dramaturq kimi tanınması, ideya və sənət axtarışları, sovet dövrünün məşəqqətli illəri, əsərlərinin tənqid və mübahisə obyektinə çevrilməsi, pyeslərinin teatr səhnələrindən yığışdırılması, 1937-ci ilin dəhşətli repressiyası, xəstəlikdən əzab çəkməsi, 711 gün gecə-gündüz sorğu-suala tutulması, bir sıra əsərlərinin itib-batması, sürgün illəri, 1937-1956-cı illərdə onu xalqa unutdurmaq cəhdləri, şəxsiyyətinə və yaradıcılığına şübhə və ehtiyatla yanaşılması, ümummilli liderimiz Heydər Əliyev tərəfindən ədibə əsl bəraətin verilməsi, onun əsərlərinin yenidən çap olunması və Cavid irsinə göstərilən yüksək dövlət qayğısı... Qüdrətli sənətkarın həyat yolunu qısaca belə ifadə etmək olar. Böyük mütəfəkkirin keçdiyi həyat yoluna nəzər salarkən bir daha əmin olursan ki, sənətkarın qəlbi həmişə xalqının qəlbi ilə çırpınmış, xalqın dərdini və iztirablarını çəkmişdir. Cavid həmişə, sözün həqiqi mənasında, müstəqil və azad düşünmüşdür. Sərbəst düşüncə, sərbəst yaratmaq, zamanın problemlərini sərbəst və azad araşdırmaq sənətkarın əsas yaradıcılıq prinsiplərindən biridir.

Hüseyn Cavid şəxsiyyətinə və yaradıcılığına verilən yüksək qiymət haqqında düşünərkən böyük sənətkarın mərhum qızı Turan xanımın dediyi bu fikir yada düşür: ***“Atama əsl bəraəti 1981-ci il iyul ayında “Hüseyn Cavidin 100 illiyi haqqında” qərardan sonra hesab edirəm. Bu, ədalətin zəfər çalması idi. Bunun üçün mən, birinci növbədə, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə minnətdaram”.*** Ümummilli liderimizin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən bu qərar böyük şair və dramaturqa dövlət səviyyəsində verilən yüksək qiymətin parlaq nümunəsi olmaqla sənətkara münasibətin köklü şəkildə dəyişməsinin istinad nöqtəsi kimi mədəniyyət və ədəbiyyat tariximizdə böyük hadisə idi.

Məhz bu qərardan sonra ümummilli liderimiz Heydər Əliyev çox böyük cəsarət tələb edən bir addım atdı. 1982-ci ildə Cavidin cənazəsi Uzaq Sibirdən Naxçıvana gətirilərək böyük xalq sevgisi ilə dəfn edildi və məzarının üzərində əzəmətli məqbərənin tikilməsi qərara alındı. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsidir.

Ötən əsrin 70-ci illərindən başlayaraq Cavidin əsərləri nəşr olunmağa başlanmış, rus dilində 2 cildliyi işıq üzü görmüşdü. Azərbaycanın şəhər və rayonlarında yubiley tədbirləri təşkil olunmuş, əsərləri respublikamızın teatrlarında səhnəyə qoyulmuş, adına küçələr, məktəblər, kitabxanalar verilmişdir. 1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. O vaxt Naxçıvanda Ali Məclisin Sədri işləyən ümummilli liderimiz yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu çıxış etmiş, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevi Cavid şəxsiyyətinə, irsinə, ailəsinə diqqət və qayğı həmişə düşündürürdü. 1995-ci il iyunun 10-da ulu öndərimiz Heydər Əliyevin yanında keçirilmiş müşavirədə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı məsələlər geniş müzakirə olunmuş, ulu öndərin ən böyük arzularından biri 1996-cı il oktyabrın 29-da həyata keçmişdir. Həmin gün Naxçıvanda böyük sənətkarın məqbərəsinin təntənəli açılış mərasimi olmuşdur. Bu təntənəli mərasimdə geniş nitq söyləyən ümummilli liderimiz sənətkara yüksək qiymət verərək deyirdi: ***“Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün, gələcək nəsillər üçün dərslik kitabıdır”.***

Azərbaycanda Hüseyn Cavidin yubileylərinin keçirilməsi, əsl poeziya bayramlarına çevrilməsi sənət və sənətkara ulu öndərin verdiyi qiymətin nəticəsidir. Bu yubileylərin keçirilməsi artıq ənənəyə çevrilmişdir. “Cavid ömrü boyu” salnaməsinin hazırlanması, əsərlərinin kütləvi tirajla nəşr olunması, bədii və sənədli filmlərin çəkilməsi, televiziya tamaşalarının hazırlanması, pyeslərinin ölkəmizin müxtəlif teatrlarında səhnəyə qoyulması da Hüseyn Cavid irsinə qayğının bir hissəsidir. Son illər Hüseyn Cavid haqqında çoxsaylı tədqiqat əsərlərinin, monoqrafiyaların yazılması böyük sənətkarın yaradıcılığına marağın göstəricisidir. Müstəqillik illərində Hüseyn Cavid yaradıcılığına maraq daha da artmışdır. Son illər böyük sənətkarın əsərləri 12-dən çox dilə tərcümə olunaraq çap edilmişdir.

Zaman keçdikcə Hüseyn Cavid irsinə maraq daha da artır. Ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci ildə imzaladığı “Hüseyn Cavidin 125 illik yubileyi haqqında” Sərəncam, eləcə də “Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında” 2012-ci il 16 fevral tarixli Sərəncamı Hüseyn Cavid yaradıcılığına göstərilən növbəti dövlət qayğısıdır. Sərəncamda deyilir: ***“Hüseyn Cavid dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə ədəbiyyatımızda yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Sənətkarın dünya romantizmi ənənələri zəminində bəşəriyyətin mənəvi həyatı ilə bağlı axtarışlarının ifadəsi olan lirik əsərləri, mənzum faciə və tarixi dramları qiymətli söz inciləri kimi xalqımızın zəngin fikir xəzinəsində layiqli yer tutur”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 20 fevral tarixli Sərəncamı ilə “Hüseyn Cavidin 130 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı” təsdiq edilmişdir. Tədbirlər Planına əsasən, Hüseyn Cavidin 130 illik yubileyi ilə əlaqədar simpozium keçirilmiş, Naxçıvan Dövlət Musiqili Dram Teatrında “Şeyx Sənan” əsəri səhnəyə qoyulmuş, “Naxçıvan” jurnalının bir nömrəsi ədibin yubileyinə həsr olunmuş, silsilə tədbirlər keçirilmişdir. AMEA Naxçıvan Bölməsində, ali təhsil ocaqlarında, mədəniyyət müəssisələrində elmi konfranslar təşkil olunmuş, kütləvi informasiya vasitələrində böyük ədibin həyat və yaradıcılığı işıqlandırılmışdır.

Hüseyn Cavid yaradıcılığı boyu nə yazmışdırsa, öz vicdanının səsi ilə yazmışdır. “Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir”, – deyən dahi sənətkar bütün yaradıcılığı boyu öz doğma xalqını azad və xoşbəxt görmək, ana Vətənə xidmət etmək kimi ali məqsəd, ülvi hisslər tərənnüm etmişdir. Söz sənəti insanı, bəşəriyyəti yüksəlişə, ucalığa səsləyən həqiqətlərin aynasıdır. Hüseyn Cavid bu şərəfli vəzifəni ilk şeirindən son sözünə, son nəfəsinə qədər seçmiş bir sənətkardır. Böyük sənətkar gözəllik, ədalət və əxlaq haqqında həqiqətləri birləşdirərək özünün sənət dünyasını yaratmışdır. Hüseyn Cavid sənəti hər bir insanın dünyasını daxilən mükəmməlləşdirən və zənginləşdirən söz gülüstanıdır. İnsan qəlbini saflaşdıran, insan fikrini ucaldan, könül dünyasını yüksəldən sənət isə həmişə əbədiyaşardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Hüseyn Cavid nə yazmışsa, Azərbaycan üçün, Azərbaycan oxucusu üçün, Azərbaycan xalqı üçün yazmışdır. Millilik, vətənçilik, Azərbaycançılıq onun yaradıcılığının ruhunda və qanındadır. Cavidin şeir dili təmiz Azərbaycan-türk dilidir. Hüseyn Cavid əsərlərinin mövzusunun və qəhrəmanının hansı dövrü və ya hansı mühiti təmsil etməsindən asılı olmayaraq, bu əsərlərdə irəli sürülən ideyalar, birinci növbədə, azərbaycanlı oxucunun özünü dərk etməsinə, vətən tarixini, onun milli dəyərlərini öyrənməsinə, mədəni irsə sahib çıxmasına yönəlmişdir”.***

**Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti**

## Cavid əfəndi

### Hüseyn Cavidin məqbərəsi önündə düşüncələr

***Aç, aç gözlərini, Cavid əfəndim,***
***Sənə söyləməyə çoxlu sözüm var.***
***Bəşər tarixinin qızıl fondunda,***
***Gör neçə əsərin qalıb yadigar.***

***Səhnədən düşməyir, söz incilərin,***
***Məhəbbət, sədaqət yenə öndədir.***
***Şeyx Sənan, Maralın saf arzuları,***
***İstəyi, diləyi ürəklərdədir.***

***Aç, aç gözlərini, Cavid əfəndim,***
***Qoy deyim, nə böyük ürəyin varmış,***
***Səni görsə idi Nəsimi babam,***
***Söylərdi: – Qəlbinə cahan sığarmış.***

***Sən cahan mülkünün söz sərkərdəsi,***
***Ən böyük dahisi, oğlu olmusan.***
***Sən cahan mülkünün söz xəzinəsi,***
***Sevən ürəklərə axıb, dolmusan.***

***Aç, aç gözlərini, Cavid əfəndim,***
***O məkrli illər arxada qalıb.***
***Doğma Vətəninin hər qarışında,***
***Azadlıq, istiqlal qələbə çalıb.***

***Bu yurdun qəhrəman övladlarına,***
***Günəş də, ulduz da məftun olubdur.***
***Çünki hər bir ana oğlu, qızını,***
***Vətəni yolunda igid doğubdur.***

***Səninlə fəxr edir anam Naxçıvan,***
***Səninlə fəxr edir dünya, şairim!***
***Sənin şərəfinə, sənin adına,***
***Abidə ucaldıb ulu öndərim.***

***Söyləyim, adını daşıyan muzey,***
***Mənəvi irsini yaşadır burda.***
***Keçdiyin mənalı həyat yolunu,***
***Hər Vətən oğluna anladır burda.***

**Rövşən HÜSEYNOV**

## Dahi bəstəkarın doğum günü qeyd olunub

*Naxçıvan Dövlət Universitetində Azərbaycanın görkəmli şair və dramaturqu Hüseyn Cavidin oğlu, dahi bəstəkar Ərtoğrol Cavidin doğum gününə həsr olunmuş ədəbi-musiqili mərasim keçirilib.*

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Cavidlər nəslinin nümayəndələrinin keçdiyi çətin, məşəqqətli, lakin şərəfli ömür yolundan söz açıb.

İncəsənət fakültəsinin dekanı Günay Məmmədova çıxışında gözəl musiqi və rəsm əsərlərinin, ədəbi parçaların müəllifi olan Ərtoğrol Cavidin çoxşaxəli fəaliyyətindən danışıb.

Bildirilib ki, 24 il ömür sürməsinə baxmayaraq, Ə.Cavid 200-dən çox el havasını nota köçürüb, aşıqlarımızın ifasında söylənən dastan və nağılların mətnlərini yazıya alıb, öz yaradıcılığında onlardan faydalanaraq 50-dən çox gözəl şeir və ecazkar musiqi əsərləri yaradıb.

Ərtoğrol Cavid 1943-cü ildə Naxçıvanda vəfat edib. Onun məzarı ölümündən 53 il sonra ulu öndərimiz Heydər Əliyevin göstərişi ilə Hüseyn Cavidin Naxçıvandakı məqbərəsinə köçürülüb.

Tədbirin bədii hissəsində “Eşq olsun” mahnı-marşı, “Skripka və fortepiano üçün poema”, “Səninlə olaydım”, “Melodiya”, “Doqquz variasiya” kimi musiqi əsərləri ifa olunub.

**Nərmin CABBAROVA**

# Naxçıvanın şəfa mərkəzi

***20 nəfərlik heyətlə Naxçıvana gələn müxtəlif media orqanlarının rəhbərləri bu gözəl diyarın hər yerindən keçmişə boylanan bir pəncərə olduğundan, Naxçıvanın inkişaf etməklə yanaşı, öz qədimliyini də qoruyub saxladığından, keçmişinə sahib çıxdığından ağızdolusu danışırdılar. Səfər çərçivəsində bir daha şahidi olduq ki, qədimliyi ilə fərqlənən, mədəni, tarixi abidələri ilə özündə tarix yaşadan bu diyar, sən demə, həm də böyük turizm potensialına malik imiş. Burada hətta elə yerlər var ki, həm turizm baxımından əvəzsizdir, həm də şəfa ocağı kimi hər il yüzlərlə insanı özünə cəlb edir. "Yüz eşitməkdənsə, bir dəfə görmək yaxşıdır" məsəlinə əməl edib, yollanırıq Naxçıvanın adı dillərdə gəzən, tərifi ölkəmizin sərhədlərindən çox-çox uzaqlarda dolaşan, məşhur Duzdağ Fizioterapiya Mərkəzinə. O Duzdağ ki neçə-neçə xəstənin dərdinə çarə olaraq onları dünyanın ən böyük neməti olan cansağlığına qovuşdurub. Davasız, dərmansız... Eləcə unikal duz mağarasının möcüzəvi havası ilə... Yol abad, söhbət şirin olduğuna görə, mənzil başına necə çatdığımızı hiss etmədik. Bir də gördük ki, artıq Duzdağ Fizioterapiya Mərkəzinin qarşısındayıq.***



***Möcüzəli duz mağarası...***

Duzdağ mağarasına çatmamış gözümün önündə enişli-yoxuşlu, kələ-kötür yollu bir mağara canlandırsam da, xəstələrin müalicəsi üçün hər bir şəraiti olan xəstəxana ilə qarşılaşdım. Yeganə fərq bu şəfa ocağının yerin altında qərarlaşması idi. Tavanı və divarları sal və kələ-kötür daşduzlardan ibarət olan bu mərkəz xəstələrin dincəlməsi, müalicə alması üçün bütün zəruri avadanlıqlarla təchiz edilmişdi.

Duzdağ Fizioterapiya Mərkəzi ilə daha yaxından tanış olmaq üçün bu şəfa ocağının baş həkimi Zülfiyyə Həsənova ilə söhbətləşirik. Zülfiyyə Həsənova bizə Duzdağ mağarasının unikallığı barədə məlumat verərək buradakı duz qatının qalınlığının 8,2 metr olduğunu söyləyir. Bu fizioterapiya mərkəzinin daha bir unikallığı isə ilin bütün fəsillərində temperaturun dəyişməz qalmasıdır: "Burada ilin bütün fəsillərində havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir".



Həmsöhbətimiz deyir ki, bura müraciət edən xəstələr əvvəlcə 2-3 gün xəstəxana ərazisinə adaptasiya olunurlar. Bundan sonra böyüklərə və kiçiklərə ayrı-ayrılıqda müalicə kursu təyin edilir. Zülfiyyə Həsənovanın sözlərinə görə, maksimal olaraq müalicə kursu 14 gün təşkil etsə də, hər xəstəyə xəstəliyin gedişatına və yaşına görə ayrıca müalicə kursu təyin edilir. Onun sözlərinə görə, uşaqlar, əsasən, 8 gün olmaqla, gün ərzində 2-3 saat duz mağarasında qala bilərlər: "Böyüklər axşam saatlarında, uşaqlar isə gündüz saatlarında 10-15 seans yeraltı şöbədə olurlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 85 faiz, uşaqlarda isə 99 faizə qədər yaxşılaşma qeydə alınır".

Zülfiyyə Həsənova deyir ki, buna səbəb uşaqlarda xəstəliyin yeni baş qaldırmasıdır: "Xəstə nə qədər tez, xəstəlik ağırlaşmamış müraciət edərsə, effekt də bir o qədər çox olar".

Baş həkim Duzdağ Fizioterapiya Mərkəzinə, əsasən, həkim göndərişi ilə gəlməyin məsləhət olduğunu söyləyir. Onun sözlərinə görə, bu zaman diaqnoz əsasında xəstəyə müalicə kursu tətbiq etmək daha asan olur: "Bəzi xəstələr var ki, özləri bura müraciət edirlər. Biz bu zaman onlarda xəstəliyin hansı mərhələdə olduğunu, xəstəliyin kəskin, yoxsa remissiya dövründə olduğunu öyrənmək üçün analiz, kliniki müşahidə aparmalı oluruq. Amma yaxşı olar ki, xəstələr öz qeydiyyatda olduqları poliklinikanın, xəstəxananın göndərişi əsasında, dəqiq diaqnozla bizə müraciət etsinlər. Bu zaman özlərinin də, bizim də işimizi asanlaşdırmış olarlar".

***Kimlər şəfa tapa bilər?***

Bəs görəsən Duzdağ Fizioterapiya Mərkəzində, əsasən, hansı xəstələr şəfa tapa bilər? Zülfiyyə Həsənova bildirir ki, allergik astma və xroniki bronxiti olan xəstələrdə şaxta havası daha çox effekt verir: "Bronxial-astmalı şəxslərdə speleoterapiyadan sonra boğulma tutmalarının sayı azalır və ya kəsilir. Eləcə də quru öskürək azalır və ya bəlgəmli öskürəklə əvəz olunur. Yuxuları yaxşılaşır, gecə boğulma tutmaları azalır. Bronx yolları təmizlənir, xəstələr havanı daha rahat alırlar".



Hər xəstəliyin müalicəsinə vaxtında başlamaq məqsədəuyğun sayıldığı kimi, allergik astma və xroniki bronxitin də müalicəsi üçün xəstəlik ağırlaşmamış Duzdağ Fizioterapiya Mərkəzinə gəlmək lazımdır. Z.Həsənova söyləyir ki, xəstələrə burada müalicə kursu keçdikdən sonra onların xəstəliyin ağırlaşdıran zərərli amillərdən uzaq durmaq tövsiyə olunur.

***Həm pulsuzdur, həm də...***

Xəstəxananın tibbi personalı 24 saat ərzində növbəlilik prinsipi ilə gələn xəstələrə xidmət göstərir. Hətta mərkəzin iki təcili xidmət avtomobili də var. Duzdağ Fizioterapiya Mərkəzi ilə bağlı xəstələri daha çox maraqlandıran məqam burada xidmətin pullu, yaxud pulsuz olmasıdır. Baş həkim nəinki bu mərkəzdə tibbi xidmətin pulsuz olduğunu, hətta Naxçıvanın mərkəzindən xəstələri bu şəfa ocağına gətirən pulsuz avtomobil servisinin də olduğunu söyləyir.

Həmsöhbətimiz deyir ki, Naxçıvanın mərkəzindən 14 kilometr aralıda yerləşən bu şəfa ocağına yayda axın çox olduğundan, servis bir neçə reyslə xəstələri xəstəxanaya daşıyır. Zülfiyyə Həsənova şəfa ocağı kimi xarici ölkələrdə də məşhurlaşan Duzdağ Fizioterapiya Mərkəzinə əcnəbi xəstələrin də müraciət etdiyini deyir. Onun sözlərinə görə, Polşanın Krakov şəhərində, Ukraynanın Ujqorod şəhərinin Solotvino qəsəbəsində, o cümlədən Qırğızıstanda da duz şaxtası var. Ancaq Naxçıvandakı Duzdağ öz müalicəvi əhəmiyyətinə görə digərlərindən bir neçə cəhətdən üstündür: "Naxçıvandakı şaxtalar dağın altında horizontal şəkildə yerləşdiyindən təzyiqin birdən-birə dəyişməsinə və xəstələrin səhhətinin pisləşməsinə gətirib çıxarmır. Burada temperatur sabitdir, nisbi rütubət aşağıdır, havada zərərli qazlar yoxdur. Buraya gələn xəstələrin, təxminən, 300 metr məsafəni qət etməsi isə yeraltı şöbədəki havaya tədricən öyrəşmək imkanı yaradır".

***İldə 2500-3000 nəfər müraciət edir...***

Duzdağ şaxtasını gəzdikdə yolüstü mərkəzin həkim-pulmonoloqu Nizami Şahtaxtinski ilə də söhbətləşirik. Həmsöhbətimiz deyir ki, buraya müraciət edən xəstələrin çoxu bronxitlər, asmatik bronxitlər, predastmalar, bronxial-astma, allergik konyuktivit, allergik rinit kimi xəstəliklərdən əziyyət çəkənlərdir: "Bura daha çox bronxial-astma, astmadan əvvəlki dövr, asmatik bronxitlər müraciət edir. İl ərzində bu xəstəxanaya bronxial-astma, allergik xəstəliklərlə bağlı 2500-3000 nəfər müraciət edir. Onların arasında yay aylarında uşaqlar daha çox olur".

Həmsöhbətimiz deyir ki, balaca uşaqlar yaşından, orqanizmin xüsusiyyətindən asılı olaraq 6-10 günədək, böyüklər 10-16 gün müalicə kursu keçə bilərlər.

Duzdağ mağarasına girər-girməz məni ilk düşündürən suallardan biri, bəlkə də, birincisi bu möcüzəvi şəfa ocağının müalicəvi əhəmiyyətinin səbəbi ilə bağlı idi. Görəsən, Duzdağ Fizioterapiya Mərkəzində insanların şəfa tapması hansı amillə bağlıdır? Buranın havasında olan hansı möcüzə insanların dərdinə dərman olur?

Nizami Şahtaxtinski deyir ki, duzdağ şaxtasında 1 kubsantimetr havada 17-21 mq natri xlor ionları var: "Onlar bir növ havanı mikrobsuzlaşdırır. Tutmaları sakitləşdirir, remissiya dövrünə keçirir. Daimi barometrik təzyiqin nəticəsində allergik iltihaba reflektorik təsir göstərilir. Allergik reaksiyaların zənciri qırılır və nəticədə, kliniki, biokimyəvi effektlər yaranır. Müalicə 80-85 faiz kömək edir".

Amma həmsöhbətimiz deyir ki, bu müalicə ilə yanaşı, məsləhətlərə əməl edilməlidir. Duzdağ şaxtasında müalicə aldıqdan sonra tüstü, toz, qoxu, sitrus meyvələrindən uzaq durmaq lazımdır.

Biz Duzdağ Fizioterapiya Mərkəzində olduqda diqqətimi cəlb edən daha bir məqam buraya əcnəbi turistlərin gəlməsi oldu. Elə mərkəzin baş həkimi Zülfiyyə Həsənova da bu möcüzəvi və unikal məkana xəstələrdən çox, turistlərin gəldiyini söyləyir. Onun sözlərinə görə, Fizioterapiya Mərkəzi yeraltı və yerüstü hissələrdən ibarətdir. Yerüstü hissə "Duzdağ" otelinin ərazisində yerləşir. Oteldə qonaqlar üçün yüksək səviyyədə xidmət mövcuddur. Zülfiyyə Həsənova deyir ki, turistlərin mərkəzə girişi üçün onlardan heç bir haqq alınmır: "Turistlər gəldiyi üçün burada Naxçıvanın tarixini özündə əks etdirən yerli istehsaldan ibarət suvenirlərin satışı üçün şərait yaradılıb. Turistlər bu möcüzəvi məkana daxil olduqda divarların təbii duz olduğunu biləndə heyrətlərini gizlədə bilmirlər. Baxıb bu unikal məkandan çıxanda suvenirlər alırlar. Əsas odur ki, onlar Naxçıvanın tarixini, mədəni abidələrini, bu cür məkanlarını öz gözləri ilə görürlər. Naxçıvandan yüksək təəssüratla geri qayıdırlar".

**Zülfiyyə QULUYEVA**
***Bakı-Naxçıvan-Bakı***
***movqe.az saytı, "Mövqe" qəzeti***
***20.10.2016***

## "Facebook" sosial şəbəkəsində xaricdə təhsil alan naxçıvanlı gənclər üçün qrup yaradılıb

***Heç kimə sirr deyil ki, müasir dövrdə ölkələrin inkişaf səviyyəsi iqtisadi meyarlarla yanaşı, həm də onun təhsil sisteminin inkişafı və mövcud kadr potensialı ilə də ölçülür. Bu da təsadüfi deyil. Çünki hər bir ölkədə gedən bütün mənfi və müsbət proseslər insan amili ilə sıx əlaqədardır. Hərtərəfli və davamlı inkişafın etibarlı yolu elm və təhsilə daha çox diqqət və qayğı göstərilməsindən, onun müasir dünya standartlarına uyğun təşkilindən keçir.***

Məhz buna görə də dünyanın qabaqcıl dövlətləri özlərinin inkişaf səviyyələrini qoruyub saxlamaq və yeni hədəflərə doğru irəliləmək üçün bu sahəyə böyük əhəmiyyət verirlər. Bu gün ölkəmizdə də təhsilin inkişafına xüsusi diqqət yetirilir. İqtisadi potensialımız daha da artdıqca bütün sahələrin inkişafına kapital qoyulur, yüksək intellektli, vətənpərvər gəncliyin formalaşması üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Bu çərçivədə elmin, təhsilin inkişafına dövlət qayğısı nəticəsində gənclərimizin dünyanın müxtəlif nüfuzlu ali təhsil müəssisələrində təhsil alması da təmin edilir.

Xaricdə təhsil alan gənclər isə həm yaxşı təhsil almağa çalışırlar, digər tərəfdən ölkəmizə, o cümlədən muxtar respublikamıza dair həqiqətlərin təhsil aldıqları ölkələrin ictimaiyyətinə çatdırılmasında xüsusi rol oynayırlar. Həmin gənclərin təhsil aldıqları ölkələrin informasiya mühitində fəallığı birbaşa respublikamızın beynəlxalq nüfuzuna xidmət edir. Fəxrlə deyə bilərik ki, xaricdə təhsil alan naxçıvanlı gənclər də bu gün muxtar respublikanı layiqincə təmsil edirlər. Onlara daha yaxından dəstək verməyi qarşısına məqsəd qoyan Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları sosial şəbəkələrdə qruplar yaradıb və gəncləri bu qruplarda bir araya gətiriblər. "Facebook" sosial şəbəkəsində "Xaricdə təhsil alan naxçıvanlı gənclər" adlı həmin qrupun məqsədi də onları bir araya gətirmək, diskussiya mühiti formalaşdırmaq, əlaqələri möhkəmləndirmək, həyata keçiriləcək tədbirləri müəyyənləşdirmək, tələbələr arasında sıx birliyi, həmrəyliyi təmin etməkdir. Digər tərəfdən xaricdə təhsil alan gənclərin muxtar respublikanın sosial-iqtisadi inkişafı, burada həyata keçirilən quruculuq işləri ilə, həmçinin qədim diyarın gəzməli-görməli yerləri, tarixi abidələri, ziyarətgahları, mədəniyyət, istehsal, təhsil müəssisələri barədə mütəmadi olaraq məlumatlandırmaq da qrupun əsas məqsədlərindən biridir.

Qrup qısa vaxt kəsiyində xaricdə təhsil alan yüzlərlə tələbəni bir araya gətirməyi bacarıb. Bu gün "Xaricdə təhsil alan naxçıvanlı gənclər" qrupunda gənclərimiz kifayət qədər təşkilatlanıblar və onlar ölkəmizin, muxtar respublikamızın aktiv təbliğatını aparırlar.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 796